**“Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 92-ci maddəsini, 94-cü maddəsinin I hissəsinin 3-cü bəndini və 95-ci maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **q ə r a r a a l ı r :**

“Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 565; 2000, № 12, maddə 833; 2005, № 10, maddə 876; 2007, № 5, maddə 437; 2009, № 6, maddə 395; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71; 2016, № 1, maddə 34) aşağıdakı dəyişikliklər edilsin:

1. 10-cu maddənin ikinci hissəsinin onuncu abzasından “, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavininin” sözləri çıxarılsın.

2. 12-ci maddənin ikinci hissəsi üzrə:

2.1. altıncı abzasdan “, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri və sədr müavini” sözləri çıxarılsın;

2.2. doqquzuncu abzas onuncu abzas hesab edilsin və aşağıdakı məzmunda doqquzuncu abzas əlavə edilsin:

“Azərbaycan Respublikası Hesablama Palatasının fəaliyyəti haqqında illik hesabata baxır və rəy verir;”.

3. 22-ci maddəyə “təşkilati” sözündən əvvəl “hüquqi,” sözü əlavə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 fevral 2019-cu il
№ 1513-VQD